# BƏLƏDİYYƏ HƏYATI

№14 (321)

www.belediyye.info / e-mail: belediyye2015@gmail.com

İCTİMAİ - SİYASİ QƏZET

25 İyul 2015-ci il

Qəzet 2003-cü ildən nəşr edilir


# AZƏRBAYCAN PREZİDENTİ: "MƏTBUAT HƏR ZAMAN STRATEJİ MARAQLARI MÜDAFİƏ ETMƏLİ, MİLLİ MARAQLARIMIZI BEYNƏLXALQ MÜSTƏVİDƏ QORUMALIDIR"

**Prezident İlham Əliyev Azərbaycan mətbuatının yaranmasının 140 illiyi münasibəti ilə Mətbuat Şurası İdarə Heyəti üzvlərini qəbul edib.**

Görüşdə çıxış edən dövlət başçısı Azərbaycan mediasının fəaliyyətini yüksək qiymətləndirdiyini bildirib.

Prezident Azərbaycanda 1998-ci ildə senzuranın ləğv olunmasının müstəqil medianının yaranması və inkişafı üçün təkan olduğunu deyib. O bundan sonrakı mərhələdə isə özünü tənzimləmə strukturu kimi Mətbuat Şurasının fəaliyyətini yüksək qiymətləndirdiyini qeyd edib.

Prezident İlham Əliyev eyni zamanda mediada olan qeyri-peşəkarlıq meyllərinə də toxunaraq deyib ki, Azərbaycan mediası illər keçdikcə özünü daha da peşəkarlaşdırır, əvvəlki illərdə mövcud olan qeyri-etik yazılar, təhqiramiz materiallar yavaş-yavaş azalır, media daha çox milli mövqedən çıxış edir.

Dövlət başçısı MŞ-nin jurnalistlərin hüquqlarını qoruduğunu, iqtidarla mətbuat arasında körpü rolunu oynadığını xüsusi vurğulayıb.

Prezident İlham Əliyev mediada yer alan tənqidlər barədə danışaraq bildirib ki, o, medianın müxtəlif sahələri tənqid etməsini təqdir edir, bəzən özü də müxtəlif tənqidi məqamlar, çatışmazlıqlarla bağlı məsələləri mediadan öyrənir,



bununla bağlı müxtəlif göstərişlər verir: "Media problemlərin aşkara çıxarılması üçün mənim ən yaxın dəstəkçilərimdən biridir".

Prezident medianın beynəlxalq əlaqələrinə də toxunub. Qeyd edib ki, medianın maddi-texniki bazasının gücləndirilməsi, peşəkarlığı ilə yanaşı, beynəlxalq əlaqələrinin genişləndirilməsi də vacibdir.

Dövlət başçısı xüsusi olaraq internet medianın fəaliyyətinə toxunub. O, Azərbaycanda internetin azad olduğunu deyib, internet medianın daha çox dildə fəaliyyət göstərməsi, daha çox ölkədə müxbir məntəqələrinin olmasını təqdirəlayiq hal sayıb.

Prezident bildirib ki, medianın beynəlxalq əlaqələrinin gücləndirilməsi, transmilli, digər ölkələrin media orqanları ilə əlaqələrinin qurulması, həmçinin erməni diasporunun Azərbaycana qarşı apardığı mübarizənin qarşısının alınması üçün Azərbaycan mətbuatı öz fəaliyyətini daha da gücləndirməlidir. Bunun media ilə bağlı prioritet sayılan məqamlardan biri olduğu qeyd edilib.

Dövlət başçısı media orqanlarının dünya mediası ilə əməkdaşlıq formatlarının tapılması, bu cür əməkdaşlıqların qurulmasının arzuedilən olduğunu vurğulayıb.

Daha sonra tədbirdə MŞ sədri Əflatun Amaşov, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı, Azərbaycan Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının sədri Umud Rəhimoğlu müxtəlif təkliflərlə çıxış ediblər.

Ə.Amaşov Azərbaycan milli maraqlarının qorunmasında xidmətlərinə görə MŞ-nin xüsusi diplomunu prezident İlham Əliyevə təqdim edib.

Daha sonra dövlət başçısı Əflatun Amaşovu, KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərlini 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, MŞ İdarə Heyətinin üzvləri Rauf Arifoğlu və Azər Həsrəti isə "Əməkdar jurnalist" adı ilə təltif edib.

Sonda xatirə şəkli çəkdirilib.

***APA***

## "BƏLƏDİYYƏ VƏ MEDİA: MÖVCÜD DURUM VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ" MÖVZUSUNDA MÜZAKİRƏLƏR APARILIB




**İyulun 10-da Bakıda "Bələdiyyə həyatı" qəzetinin təşkilatçılığı ilə Azərbaycan mətbuatının 140 illik yubileyinə həsr olunan "Bələdiyyə və media: mövcud durum və inkişaf istiqamətləri" mövzusunda "dəyirmi masa" keçirilib.**

Tədbirdə Milli Məclisin üzvləri, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin nümayəndələri, Bakı bələdiyyələrinin sədrləri, vətəndaş cəmiyyəti və media təmsilçiləri iştirak ediblər.

"Bələdiyyə həyatı" qəzetinin baş redaktoru Vüqar Tofiqli son illərdə ölkəmizdə medianın inkişafı istiqamətində görülən işlərdən danışıb. Qeyd edib ki, Azərbaycanda kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyəti üçün əlverişli şərait yaradılıb, plüralizm, söz və mətbuat azadlığına mane olan senzura ləğv edilib, mətbuatın fəaliyyətini tənzimləyən qanunvericilik bazası formalaşdırılıb. Bildirilib ki, "Bələdiyyə həyatı" qəzetində bələdiyyə sahəsi ilə bağlı çoxsaylı materiallar dərc olunur. Qəzet bələdiyyələrin fəaliyyətini stimullaşdımaq üçün bir vasitədir.

Milli Məclisin regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə çıxış edərək Azərbaycan milli mətbuatının inkişafından, bələdiyyələrlə bağlı qanunvericilikdən, bələdiyyələrin fəaliyyətinin əlaqələndirilməsindən, yerli özünüidarəetmənin inkişafından danışıb. O deyib ki, əsas məqsədi Azərbaycan cəmiyyətini maarifləndirmək, xalqın milli özünüdərk prosesinə təkan vermək olan "Əkinçi" qəzeti öz fəaliyyəti dövründə milli şüurun formalaşmasında mühüm rol oynayıb.

Qeyd edilib ki, kəşməkəşli inkişaf yolu keçən Azərbaycan mətbuatı ötən əsrin 70-ci illərindən başlayaraq öz üzərində daim ümummilli liderimiz Heydər Əliyevin qayğısını hiss edib. Çünki Ulu Öndər hətta sovet dövrünün ciddi senzura şəraitində belə fikir və söz azadlığının himayədarı olub, mətbuatın ictimai mövqeyinin möhkəmlənməsinə, nüfuzunun artmasına təkan verib. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan mətbuatı özünün yeni mühüm inkişaf dövrünü yaşayır. Qəzetlərin Azərbaycan nəşriyyatına borclarının büdcədən ödənilməsi, müstəqil qəzetlərə birdəfəlik maliyyə yardımının edilməsi və mətbuat işçilərinin mənzillə təmin olunması bu sahəyə göstərilən diqqət və qayğının bariz nümunələridir. A.Rəhimzadə bələdiyyə institutunun Azərbaycanda ən vacib dövlət orqanlarından biri olduğunu söyləyib, bələdiyyələrin yaxşı fəaliyyət göstərməsi üçün insanların fəal olmalarının zəruriliyini vurğulayıb.

Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi Mehdi Səlimzadə çıxışında Azərbaycan milli mətbuatının inkişaf tarixindən danışıb. O, Azərbaycan milli mətbuatının özünəməxsus ənənələr yaratdığını və şanlı jurnalistlər nəsli yetişdirdiyini söyləyib. Bildirib ki, mətbuatımızın yaradıcısı Həsən bəy Zərdabidən başlayaraq günümüzə qədər böyük söz ustadları milli təfəkkürün inkişafı üçün misilsiz xidmətlər göstərib.

Qeyd edilib ki, Azərbaycanda demokratik mətbuatın formalaşmasında, azad fikrin ifadəsi yolunda ulu öndər Heydər Əliyevin həyata keçirdiyi islahatlar əvəzsiz olub. Ümummilli lider Heydər Əliyev demokratik dövlət quruculuğu prosesində kütləvi informasiya vasitələrinin rolunu daim yüksək qiymətləndirib, Azərbaycanda senzuranın ləğvi və bir sıra digər tədbirlərlə mətbuatın inkişafına böyük dəstək verib. Mətbuatımızın inkişafına, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsinə yönəlmiş siyasət bu gün Prezident İlham Əliyev tərəfindən ardıcıl surətdə və daha geniş miqyasda davam etdirilir.

M.Səlimzadə bələdiyyə qanunvericiliyinin təkmilləşdirilməsinin, bu sahədə institusional tədbirlərin həyata keçirilməsinin önəmini diqqətə çatdırıb.

Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosiasiyasının sədri Hümbət Hüseynov Azərbaycan mətbuatının 140 illiyi münasibətilə jurnalistləri təbrik edib, bələdiyyələrin qarşısında duran vəzifələrdən söz açıb.

"Dəyirmi masa"da bir sıra bələdiyyə sədrləri yerli əhəmiyyətli məsələlərin həllində əhalinin iştirakı, bələdiyyələrin maliyyə imkanlarının artırılması, onların fəaliyyətində aşkarlığın və şəffaflığın təmin olunması ilə bağlı çıxışlar ediblər.

***AZƏRTAC***

## 372 HEKTAR TORPAQ SAHƏSİ GERİ QAYTARILIB

Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzindən Belediyye.info saytına daxil olan məlumata görə, 2015-ci ilin 6 ayı ərzində bələdiyyələr tərəfindən 29,1573 ha torpaq sahəsinin qanunsuz olaraq ayrı-ayrı şəxslərin mülkiyyətinə, 341,41 ha torpaq sahəsinin icarəyə, 0,5 ha torpaq sahəsinin istifadəyə verilməsi haqqında qərarlar Mərkəzin təklifləri əsasında müvafiq bələdiyyələr və iddia ərizələri əsasında məhkəmələr tərəfindən ləğv edilib. Altı ay ərzində ümumilikdə 372 ha torpaq sahəsinin qanunsuz verilməsinin qarşısı alınmışdır.

Müvafiq protokollar əsasında 111 nəfər bələdiyyə sədri məhkəmələr tərəfindən inzibati məsuliyyətə cəlb ediliblər.

***Belediyye.info***

## Həftənin sitatı



## İLHAM ƏLİYEV: "ƏSASSIZ TƏLƏB İRƏLİ SÜRÜLMƏMƏLİDİR"

İlham Əliyev: "Mənə məlumatlar gəlir ki, son vaxtlar Vergilər Nazirliyi özünü çox sərt aparır, tələbkardır. Burada biz iki məsələni bir-birindən ayırmalıyıq. Vergilər Nazirliyi çalışmalıdır ki, vergi ödəyiciləri vergiləri birmənalı olaraq qanuni şəkildə, tam şəkildə versinlər. Burada heç bir başqa söhbət və güzəşt ola bilməz. Ancaq heç bir başqa əsassız tələb irəli sürülməməlidir. Mən bunu qeyd etməliyəm. Ona görə, sahibkarlar sadə dillə desək dövlətin pulunu 100 faiz verməlidirlər, vəssalam. Ondan başqa, heç kimə 1 manat verməməlidirlər. Bax, mən onlara tapşırıram və göstəriş verirəm. Eyni zamanda, dövlət qurumlarına çox ciddi göstəriş verirəm ki, heç bir əsassız tələb irəli sürülməməlidir."

***

**İlham Əliyev:** ***"...Vergilər Nazirliyi, hüquq mühafizə orqanları, yerli icra hakimiyyətləri Bakıda və rayonlarda haqq qoyurlar, pay istəyirlər, "krışalıq" edirlər. Bu, dözülməz haldır, buna son qoyulmalıdır. Əgər hesab edirlər ki, bunu heç kim bilmir, səhv edirlər. Bu, çox ciddi məsələdir və mənə siqnallar gəlir ki, bu, bəzi yerlərdə kütləvi xarakter alıb. Bu, tamamilə yığışdırılmalıdır. Ona görə, bax, bu gün mən bütün aidiyyəti qurumlara və eyni zamanda, sahibkarlara göstəriş verirəm. Mənə məlumat versinlər, qorxmasınlar, siqnal versinlər, məktub yazsınlar, e-mailə yazsınlar. Əgər belə hallar varsa, o xoşagəlməz işlərlə məşğul olan dərhal öz cəzasını alacaq."***


**Mehdi Səlimzadə: "Bu gün fəxrlə deyə bilərik ki, yüz qırx yaşlı mətbuatımızın təmsilçiləri ağır və ciddi bir imtahandan üzü ağ çıxdılar"** — Səhifə. 2

**Əmlak vergisi necə hesablanır? YENİ QAYDALAR** — Səhifə. 2

**Vüqar Əliyev: "Ancaq görülən işlərlə biz əhalinin etimadını qazana bilərik"** — Səhifə. 3

**Türk Dünyası Bələdiyyələr Birliyi İdarə heyətinin növbəti toplantısı keçirilib** — Səhifə. 3

**Bahadur Kərimov: "Bələdiyyələr tərəfindən qəbul edilmiş inzibati aktlar icra sənədləri sayılır"** — Səhifə. 4

# Əmlak vergisi necə hesablanır? YENİ QAYDALAR

**“Azərbaycan Respublikası Vergi Məcəlləsinin 198.1.1-ci maddəsində nəzərdə tutulmuş fiziki şəxslərin əmlak vergisi məqsədləri üçün Bakı şəhərində yerləşən binalara tətbiq edilən əmsallar”**ın təsdiq edilməsi barədə 12 Aprel 2015

**”Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1004-IVQD nömrəli Qanununun tətbiqi barədə”** Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 avqust tarixli 242 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti QƏRARA ALIR:

1. ”Azərbaycan Respublikası Vergi Məcəlləsinin 198.1.1-ci maddəsində nəzərdə tutulmuş fiziki şəxslərin əmlak vergisi məqsədləri üçün Bakı şəhərində yerləşən binalara tətbiq edilən əmsallar” təsdiq edilsin (əlavə olunur).
2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, Bakı şəhərində fəaliyyət göstərən bələdiyyə orqanlarını onların inzibati ərazilərinin əhatə olunduğu zonaları əks etdirən xəritələrlə təmin etsin.
3. Bu Qərar 2015-ci il yanvarın 1-dən qüvvəyə minir.

**Artur RASİ-ZADƏ,**
Azərbaycan Respublikasının Baş naziri
№— 101
Bakı şəhəri, 06 aprel 2015-ci il



**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 6 aprel tarixli 101 nömrəli qərarı ilə təsdiq edilmişdir**

*əvvəli ötən saylarımızda*

**Zona 7.**
Sərhədləri:
Metronun ”20 Yanvar” stansiyasından başlayaraq, şimal istiqamətində Moskva prospekti üzrə 20 Yanvar küçəsi ilə kəsişənədək, 20 Yanvar küçəsi üzrə şərq istiqamətində Hüseyn Seyidzadə küçəsi ilə kəsişənədək, Hüseyn Seyidzadə küçəsi üzrə şərq istiqamətində Rəşid Məmmədov küçəsi ilə kəsişənədək, Rəşid Məmmədov küçəsi üzrə cənub istiqamətində Ziya Bünyadov prospekti ilə kəsişənədək, Ziya Bünyadov prospekti üzrə şərq istiqamətində Əhməd Rəcəbli küçəsi ilə kəsişənədək, Əhməd Rəcəbli küçəsi üzrə cənub istiqamətində Yusif Vəzir Çəmənzəminli küçəsi ilə kəsişənədək, Yusif Vəzir Çəmənzəminli küçəsi üzrə şərq istiqamətində Ağa Nemətulla küçəsi ilə kəsişənədək, Ağa Nemətulla küçəsi üzrə cənub istiqamətində Heydər Əliyev prospekti ilə kəsişənədək, Heydər Əliyev prospekti üzrə qərb istiqamətində Babək prospekti ilə kəsişənədək, Babək prospekti üzrə şərq istiqamətində Bəkir Çobanzadə küçəsi ilə kəsişənədək, Bəkir Çobanzadə küçəsi üzrə şimal istiqamətində Rüstəm Rüstəmov küçəsi ilə kəsişənədək, Rüstəm Rüstəmov küçəsi üzrə qərb istiqamətində Mikayıl Əliyev küçəsi ilə kəsişənədək, Mikayıl Əliyev küçəsi üzrə şimal istiqamətində dəmir yolu xətti ilə kəsişənədək, dəmir yolu xətti üzrə qərb istiqamətində 9-cu köndələn küçəsi ilə kəsişənədək, 9-cu köndələn küçəsi üzrə Pəhlivan Fərzəliyev küçəsi ilə kəsişənədək, qərb istiqamətində Pəhlivan Fərzəliyev küçəsi üzrə 2-ci köndələn küçəsi ilə kəsişənədək, 2-ci köndələn küçəsi üzrə şimal istiqamətində Nərimanov rayonunun sərhədi ilə kəsişənədək, Nərimanov rayonunun sərhədi üzrə şərq istiqamətində Böyük Şor gölünün sahil xətti ilə kəsişənədək, Böyük Şor gölünün sahil xətti üzrə qərb istiqamətində Nərimanov, Binəqədi rayonlarının sərhədləri kəsişənədək davam edir və Binəqədi, Nəsimi rayonlarının digər zonalarla əhatə olunmayan ərazilərini əhatə edir.

**Zona 8.**
Sərhədləri:
Dənizin sahil xəttindən başlayan və şimal istiqamətində Xaqani Rüstəmov küçəsi boyunca keçən düz xəttin Süleyman Vəzirov küçəsi ilə kəsişməsinədək, Süleyman Vəzirov küçəsi üzrə qərb istiqamətində Nəcəfqulu Rəfiyev küçəsi ilə kəsişənədək, Nəcəfqulu Rəfiyev küçəsi üzrə şimal istiqamətində Babək prospekti ilə kəsişənədək, Babək prospekti üzrə şərq istiqamətində Elşən Süleymanov küçəsi ilə kəsişənədək, Elşən Süleymanov küçəsi tizrə şimal istiqamətində Naxçıvanski küçəsi ilə kəsişənədək, Naxçıvanski küçəsi üzrə qərb istiqamətində Qara Qarayev prospekti ilə kəsişənədək, Qara Qarayev prospekti üzrə şimal istiqamətində Böyük Şor küçəsi ilə kəsişənədək, Böyük Şor küçəsi üzrə şimal istiqamətində Nərimanov rayonunun sərhədi ilə kəsişənədək, Nərimanov rayonunun sərhədi üzrə şimal istiqamətində Böyük Şor gölünün sahilinədək, Böyük Şor gölünün sahili üzrə şərq istiqamətində Böyük Şor şosesi ilə kəsişənədək, Böyük Şor şosesi üzrə şimal istiqamətində Sabunçu dairəsinədək, Sabunçu dairəsindən Şəhər şosesi üzrə şimal istiqamətində Sabunçu qəsəbəsinin şimal sərhədi boyunca şərqə doğru Suraxanı rayonunun sərhədi ilə kəsişənədək, bu kəsişmə yerindən Suraxanı rayonunun sərhədi üzrə cənub istiqamətində sərhədin Məmmədhəsən Hacmski küçəsi ilə kəsişdiyi yerədək, Məmmədhəsən Hacmski küçəsinin Nizami İsmayılov küçəsi ilə kəsişənədək, Nizami İsmayılov küçəsi üzrə qərb istiqamətində Əhməd Möhbalıyev prospekti ilə kəsişənədək, Əhməd Möhbalıyev prospekti üzrə cənub istiqamətində Xətai rayonunun sərhədi ilə kəsişənədək, bu kəsişmə yerindən Xətai rayonunun sərhədi üzrə cənub istiqamətində davam edərək, bu rayonun digər zonalarla əhatə olunmayan ərazisini əhatə edir.

**Zona9. Zona 9.1.**
Sərhədləri:
Babək prospektinin 3-cü dairəvi küçə ilə kəsişdiyi yerdən başlayaraq, dəmir yolu xətti üzrə cənub istiqamətində Aşıq Ələsgər küçəsinədək, Aşıq Ələsgər küçəsi üzrə şərq istiqamətində Məhəmməd Hadi küçəsi ilə kəsişənədək, Məhəmməd Hadi küçəsi üzrə şimal istiqamətində Babək prospekti ilə kəsişənədək, Babək prospekti üzrə qərb istiqamətində prospektin 3-cü dairəvi küçə ilə kəsişdiyi yerədək.

**Zona 9.2.**
Sərhədləri:
Suraxanı rayonunun Əmircan və Bülbülə qəsəbələri və bu rayonun digər zonalarla əhatə olunmayan əraziləri.

**Zona 10. Zona 10.1.**
Sərhədləri:
Yasamal rayonunun digər zonalarla əhatə olunmayan hissəsi.

**Zona 10.2.**
Sərhədləri:
Zuğulba, Buzovna, Mərdəkan, Şüvəlan, Lökbatan, Hövsan, Binə, Maştağa, Nardaran qəsəbələri.

**Zona 10.3.**
Sərhədləri:
Binəqədi rayonunun Binəqədi qəsəbəsinin cənub sərhədi üzrə şərqdən qərbə doğru keçən xəttin şimalında yerləşən və digər zonalarda göstərilməyən ərazisi.

**Zona 10.4.**
Sərhədləri:
Pirallahı rayonunun ərazisi.

**Zona 11.**
Sərhədləri:
Zığ, Sahil, Ramana, Zabrat qəsəbələri.

**Zona 12.**
Sərhədləri:
Qaradağ, Xəzər və Sabunçu rayonlarının digər zonalarla əhatə olunmayan əraziləri.

## Xəbərlər

### Arif Rəhimzadə: “İctimai fəallığın olmaması “Jek” lərin fəaliyyətinə şərait yaradır”



**“Bələdiyyə institutu ölkəmizin ən vacib və əhatəli sturkturlarındandır. Etiraf edək ki, bələdiyyəya qarşı düz olanda, ədalətsiz olanda, bələdiyyə haqqında təsəvvürü olanda, olmayanda bu orqanları tənqid edir.**

Bələdiyyəni düşündüyümüz həddə görməyimiz üçün vaxt lazımdır, ictimaiyyətin bu prosesə hazırllğı lazımdır”-bu fikirləri Milli Məclisin Regional Məsələlər Daimi Komitəsinin sədri Arif Rəhimzadə Belediyye.info saytlna deyib. Bələdiyyələrin fəaliyyəti bir çox hallarda onun əhartə etdiyi seçici kontingentindən asılıdır. Bəzən əhali bələdiyyələrlə qarşılıqı əməkdaşlığıa hazır görsənmirlər.

Komitə sədrinin sözlərinə görə, əhalidə təşəbbüskarlığın olmaması əslində bələdiyyələrin fəaliyyətinə maneə yaradır. Bugün qanunvericilikdə Mənzil-Kommunal İstismar sahələrinin adı çıxarılıb. Bu prosesin icrası bilavasitə əhalinin üzərinə qoyulub. Bu gün əhalidə ictimai fəallığın olmaması “Jek” lərin fəaliyyətinə şərait yaradır. Bununla yanaşı hər addımda narazılıqlarını bildirir, bələdiyyələrdən gileylərinlər. Biz istədiyimiz bələdiyyə sistemini görməyimiz üçün özümüzdəndə çox şey asılıdr. Özümüzün fəal olmağımıza ehtiyac vardır.

*Belediyye.info*

### Hümbət Hüseynov: “Bu gün bələdiyyələr bəzi məqamlarda üzərilərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələ bilmirlər”



**Bu fikri Belediyye.info saytına Azərbaycan Qəsəbə Bələdiyyələri Assosiasiyasının və M.Ə.Rəsulzadə bələdiyyəsinin sədri Hümbət Hüseynov deyib.**

Onun sözlərinə görə, yeni seçilmiş bələdiyyə sədrlərinə ağır bir miras qalıb. Əksər bələdiyyələrin DSMF-yə ciddi borcları var. Yığılan vəsaitlər borcların silinməsinə yönəlir. Nəticədə maliyyəsizlik ucbatından yeni seçilmiş bələdiyyə sədrləri əhalini narahat edən məsələlərin həllində çətinlik çəkir. Narazılıqda elə buradan yaranır. Bu problemin birlikdə qaldırmalı və ictimailəşdirməliyik ki, yeni seçilmiş bələdiyyə üzvlərinə bu cür ağır miras bundan sonra qalmasın.

Bələdiyyələr üçün ikinci ən ağır məqam onların ard-ardınca torpaqsatan orqan kimi təqdim edilməsidir. Təəssüf edirəm ki, bəzən bu ittihamlar yüksək tirbunalardan səslənir. Nəzərə alsaq ki, 2007-ci ildən bələdiyyə qanunvericilik qaydasında torpaq satışıyla məşğul olmur və torpaqlar yalnız hərrac və müsabiqə yolu ilə satılır, onda bu ittihamların heç biri məntiqə söykənmədiyini görə bilərik.

Ancaq bir məqamı da unutmaq ki, ittihamların yaranmasında bəzi bələdiyyə sədrlərinin də rolu var. Belə ki, bütün fəaliyyət sənədləşdirməklə arxivləşdirilməli olduğu halda, yeni seçilən bələdiyyə sədrləri arxivin olmamasından sui-istifadə edərək bəzən köhnə tarixlə sənədlər imzalayırlar. Məhz bu məqam cəmiyyətdə bu cür fikirlərin yaranmasına rəvac verir.

Cari ilin yanvar ayından əmlak vergisnin yığımında yenilk tətbiq edildi. Artıq şəffaflıq prinsiplərinin qorunması üçün bütün ödənişlər poçt və bank vasitəsiylə həyata keçirilir. Bu sahədə ciddi çətinliklərin olduğu deyilsə də, bizim təmsil olunduğumuz Binəqədi rayonunun beş bələdiyyəsinin gəlirləri əvvəlki illərlə müqayisədə bir xeyli artıb. M.Ə.Rəsulzadə bələdiyyəsi otən ilin müvafiq dövrü ilə müqayisədə cari ildə əmlak vergisi üzrə 70 min manat əlavə vəsait toplaya bilib. Ümumiyyətlə borcların yığılmasına diqqətli olmalıyıq. Məhkəmə vasitəsiylə bir şox borcların yığılmasına nail olmuşuq. Bələdiyyə sədrləri bütün vasitələrdən istifadə etməklə maliyyə vəziyyətlərini nizama salmalıdırlar.

*Belediyye.info*

### Bələdiyyə qulluçularının peşə bayramı olsun-TƏKLİF

**“Bələdiyyə qulluqçularının da peşə bayramı gününün təsis edilməsi və bu günün dövlət səviyyəsində qeyd olunması bələdiyyələrə fəaliyyətlərində əlavə stimul vermiş olacaq” - bunu Belediyye.info saytına açıqlamasında Yasamal bələdiyyəsinin sədri Zakir Cəfərov deyib.**

Onun sözlərinə görə, hazırda Azərbaycanda demək olar ki, bütün sahə qulluqçularının peşə bayramı dövlət qəviyyəsində qeyd olunur. Belə bir günün qeyd oluması bələdiyyə qulluqçularının seçicilərinə daha yaxşı fəaliyyəti üçün stimul vermiş olar. Belə bir günün dekabr ayında qeyd oluması daha məqsədəuyğun olardı. Əlavə edək ki, bu günədək keçirilən bələdiyyə seçkiləri məhz dekabr ayında keçirilmişdir.

Qeyd edək ki, bələdiyyə qulluqçuların peşə bayramının qeyd olunması məsələsi əvvəllərdə qaldırlıb.

Xatırladaq ki, bu gün bələdiyyə sistemində 18 minə yaxın bələdiyyə qulluqçusu çalışır.

*Belediyye.info*

### Mehdi Səlimzadə: “Bu gün fəxrlə deyə bilərik ki, yüz qırx yaşlı mətbuatımızın təmsilçiləri ağır və ciddi bir imtahandan üzü ağ çıxdılar”



**Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi Mehdi Səlimzadə Azərbaycan mətbuatının 140 illiyi ilə bağlı fikirlərini “Bələdiyyə Həyatı” qəzetiylə bölüşüb.**

- Ölkəmizdə tarixi hadisələr davam etməkdədir. Bu gün Azərbaycan dünyamiqyaslı bir tədbirə, ilk Avropa oyunlarına, ev sahibliyi etdi. İnsanların yaddaşında dərin izlər buraxan bu tədbir hələ uzun müddət media səhifələrində işıqlandırılacaq. Təbii ki bu tədbirin belə uğurla keçməsində möhtərəm prezident İlham Əliyevin və Avropa Oyunlarının təşkilat komitəsinin rəhbəri, birinci xanım Mehriban Əliyevanın tarixi fəaliyyətləri nəticəsində başa gəldi.

Etiraf etməliyik ki, oyunların dünya çapında yayılmasında Azərbaycan milli mətbutının üzərinə böyük yük düşmüşdü. Bu gün fəxrlə deyə bilərik ki, yüz qırx yaşlı mətbuatımızın təmsilçiləri ağır və ciddi bir imtahandan üzü ağ çıxdılar və mötəbər tədbiri yüksək səviyyədə işıqlandırdılar.

XIX əsrin ikinci yarısında Çar Rusiyasının tərkibində olan və daim gərginliklə üzləşən Azərbaycanda milli-azadlıq ideyaları baş qaldırdı. Məhz çətin sınaqlardan keçən xalqımız mətbuatın apardığı ideoloji işin nəticəsində Şərqdə ilk demokratik respublika qurmağa müvəffəq oldu. Sözün həqiqi mənasında hər bir media təmsilçisi fəxrlə deyə bilər ki, insanlarımızda mili azadlıq şüurunun, milli dövlətçilik prinsiplərinin formalaşmasında medianın əhəmiyyətli rolu olmuşdu.

Ötən dövrdə qazanılan hər nailiyyətdə sözsüz ki, adları qızl hərflərlə media tarixinə yazılmış tanınmış mətbuat işçilərinin də böyük zəhməti olmuşdu.

Müstəqilliyimizin ilk illərində gərgin illərlə müşaiyət edilsə də ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə gəlişi xalqımızın qarşılaşdığı çətinlikləri arxada qoydu. Silsilə tədbirlərin keçirilməsi, mətbuat nümayəndələri ilə görüşlərin təşkili, senzuranın ləğvi ən yaddaqalan addımlardan hesab olunur.

Bu gün prezident İlham Əliyev Ulu Öndərin qoyduğu strateji yolu davam etdirərək ciddi addımlar atıb. Mətbuat Şurasının inkişaf etdirilməsi və fəaliyyətinə lazımi şəraitin yaradılması, KİV-ə Dəstək Fondunun yaradlması, hər il mətbuatın bütün zümrələrindən olan müdia orqanlarına maliyyə yardımının göstərilməsi, yubiley ərəfəsində mətbuat nümayəndələrinə fəxri adların verilməsi artıq ənənə halına çevrilmişdir.

Bu gün Mətbuat Şurasının məhz Ulu Öndərin tövsiyyələrinə uyğun olaraq fəaliyyət göstərməsi də diqqəti çəkir.

Bələdiyyə-media münasibətlərinin tənzimlənməsində Mətbuat Şurasının xüsusi rolu vardır. Reket mətbuatının qarşısının alınmasında, “Qara siyahı” nın tərtib edilməsinin yüksək dəyərləndirilməldir.

Söhbətin sonunda Mehdi Səlimzadə “Bələdiyyə həyatı” qəzetinin azsaylı kollektivinin simasında bütün mətbuat təmsilçilərini təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb.

# Bələdiyyələrlə İş Mərkəzi hesabat verdi

**Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş Mərkəzində nazir müavini Vilayət Zahirovun sədrliyi ilə mərkəzin altıaylıq fəaliyyəti müzakirə edilib. Tədbirdə çıxış edən Bələdiyyələrlə İş Mərkəzinin rəis müavini Fazil Məmmədov ötən yarım ildə mərkəzin fəaliyyəti barədə məlumat verib. Müraciətlərin baxılmasına toxunan rəis müavini 6 ay ərzində mərkəzə 1028 müraciətin daxil olduğunu bildirib. Onlardan 934 vətəndaşlardan, 94 dövlət orqanları, bələdiyyələr və digər təşkilatlardandır. Müqayisə üçün qeyd edək ki, 2014-cü ilin birinci yarımilində mərkəzin icraatına 917 müraciət daxil olmuşdur. Müraciətlərə baxılmış, əksər hissəsinə əsaslandırılmış cavab verilmişdir.**




Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin təşkili və həyata keçirilməsi ilə bağlı çıxış edən Mərkəzin İnzibati nəzarət idarəsinin rəisi Həbib Yusifov hesabat dövründə icraatda bələdiyyələrin fəaliyyəti ilə bağlı şikayət xarakterli 858 müraciət daxil olduğunu qeyd edib. Hesabat dövründə 43 bələdiyyənin fəaliyyəti inzibati nəzarət icraatı qaydasında araşdırılmış, onlardan 23-də daha ciddi hüquq pozuntularına yol verildiyinə görə toplanan materiallar hüquqi qiymət verilməsi üçün prokurorluq orqanlarına göndərilib. 8 müraciət Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2009-cu il tarixli "Dövlət və bələdiyyə əmlakının və vəsaitlərinin idarə olunması sahəsində korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsi haqqında" Fərmanına uyğun olaraq araşdırılması üçün Azərbaycan Respublikası Baş Prokurorluğuna göndərilib. 6 ay ərzində mərkəzin fəaliyyəti nəticəsində ümumilikdə 372 ha torpaq sahəsinin qanunsuz verilməsinin qarşısı alınıb.

Bələdiyyələrin maarifləndirilməsi və mərkəzin beyəlxalq əlaqələrinə toxunan Mərkəzin baş məlhətçisi Qədir Xəlilov məruzəsində "Azərbaycanda bələdiyyələrin elektron portalı"nın təkmilləşdirilməsi məqsədilə bələdiyyələrin milli assosiasiyaları ilə birgə ayrı-ayrı bələdiyyələrdə internet saytlarının yaradılması ilə bağlı bir sıra işlər görüldüyün qeyd edib. Onun sözlərinə görə, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) "Cənubi Qafqazda yerli özünüidarəetmə" proqramı çərçivəsində "Yerli özünüidarə ilə bağlı hüquqi aktlar toplusu" hazırlanmışdır. Topluya yerli özünüidarə ilə bağlı beynəlxalq sənədlər, Azərbaycan Respublikasının Konstitusiyası və Məcəllələrindən çıxarışlar, bələdiyyələrin fəaliyyətini tənzimləyən qanunlar, Respublika Prezidentinin fərman və sərəncamları, Nazirlər Kabinetinin qərarları, həmçinin bir sıra normativ hüquqi aktlar və s. salınmışdır. Qədir Xəlilovun sözlərinə görə, bələdiyyələrə hüquqi və metodoloji yardım göstərilməsi mərkəzin əsas fəaliyyət istiqamətlərindən biridir. Bu məqsədlə bələdiyyələrin maarifləndirilməsinə yönəlmiş bir çox tədris kursları, seminar, təlimlər və s. tədbirlər təşkil olunmuş, kütləvi informasiya vasitələrində çıxışlar edilmişdir.

Bələdiyyələrlə İş mərkəzinin baş məsləhətçisi Hafiz Əliyev əmək və icra intizamına əməl edilməsi sahəsində mərkəzin əməkdaşlarının bundan sonar da öz üzərilərinə düşən vəzifələrin layiqincə yerinə yetirəcəklərinə dair fikirlərini bildirmişdir.

Tədbirə yekun vuran Vilayət Zahirov mərkəzin fəaliyyətini qənaətbəxş hesab etmişdir. Nazir müavini bələdiyyələrin cəmiyyətdə daha fəal orqan olması üçün mərkəzində üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edib.

***Belediyye.info***

# Türk Dünyası Bələdiyyələr Birliyi İdarə heyətinin növbəti toplantısı keçirilib




**Türkiyənin Ercan şəhərində Türk Dünyası Bələdiyyələr Birliyi İdarə heyətinin növbəti toplantısı keçirilib. Toplantıda Türk Dünyası Bələdiyyələr Birliyinin həmsədri Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş mərkəzinin rəisi Mehdi Səlimzadə də iştirak edib.**

Toplantıda Birliyin altıaylıq fəaliyyəti, birliyə yeni üzvlərin qəbulu məsələsi, həmçinin bir sıra layihələrin icrasına dəstək verilməsi və növbəti altıaylıq üçün fəaliyyət planı müzakirə edilib.

Tədbirdə çıxış edən birliyin həmsədri M.Səlimzadə Türk Dünyası Bələdiyyələr Birliyinin beynəlxalq çərçivədə, həmçinin Azərbaycanda keçirilən tədbirləri yüksək dəyərləndirib. Birliyin altıaylıq fəaliyyətini qənaətbəxş hesab edən M.Səlimzadə çıxışında Türk Dünyası Bələdiyyələr Birliyinin təşkilatıçılığı ilə nəşr olunan "Türk Dünyası" kitabının təqdimatıyla bağlı "Qanunçuluq" jurnalında nəşr edilən yazı barəsində ətraflı danışıb. Həmsədr çıxışında həmçinin ölkəmizdə keçirilən ilk Avropa oyunlarında Azərbaycan və Turkiyə idmançılarının uğurlarından danışaraq hər iki komandanın çıxışını yüksək dəyərləndirib.

Tədbirdə Azərbaycan nümayəndə heyətinin təşəbbüsüylə Azərbaycan Türkiyə bələdiyyələrinin əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi və metodik tövsiyyələrin verilməsi ətrafında ciddi fikir mübadiləsi aparılıb. Müzakirələrdən sonra həmsədrin təklifiylə ilin sonunadək Azərbaycan bələdiyyələrinin bir qrupunun vergiyığma məsələləri və yaşıllaşdırma sahəsində Türkiyə bələdiyyələrinin iş təcrübəsindən yararlanmaq üçün səfərlərin təşkili planlaşdırılıb.

Tədbirdə Tatarıstan Respublikasının bir sıra bələdiyyəsi təşkialta üzv kimi qəbul edilib. Yekunda birliyin növbəti altıaylıq iş planı ciddi fikir mübadiləsindən sonra öz təsdiqini tapıb.

Qeyd edək ki, sentyabrın 9-da Türk Dünyası Bələdiyyələr Birliyinln Baş Assambleyasının keçirilməsi qərara alınıb.

***Belediyye.info***

# Nazim Qaraxanov: "Qanunvericilikdə müəyyən dəyişikliklərin edilməsinə ehtiyac var"

**"İcra hakimiyyəti ilə bələdiyyələrin münasibətləri paralel şəkildə qurulur. Rayonun abadlaşdırılması, digər sosial-iqtisadi məsələlərlə bağlı icra hakimiyyətinin öz, bələdiyyəmizin isə öz funksiyası var". Bu fikirləri belediyye.info saytına açıqlamasında Bakının Nəsimi rayon bələdiyyəsinin sədri Nazim Qaraxanov deyib.**



Onun sözlərinə görə, Nəsimi rayonunda əmlak, torpaq vergisi bələdiyyələr tərəfindən toplanır: "Bu toplanmış vergidən sakinlərin sosial-iqtisadi rifah halının yaxşılaşdırılmasına, yaşıllaşdırma işləri, yolların abadlaşdırılması, bağların, parkların salınmasına sərf olunur. Hər hansı problemimiz olanda icra hakimiyyəti bizə yaxından köməklik göstərir. Bu yaxınlarda Dilarə Əliyeva küçəsi, 243 ünvanından 253-cü ünvana qədər olan bir sahədə yaşıllaşdırma işləri həyata keçirmişik və orada yeraltı infrastruktur işlərindən su təchizatı sisteminin və digərləri ilə bağlı müraciətimiz əsasında həmin qurumların bu əraziyə operativ cəlb olunmasında icra hakimiyyəti bizə yaxından köməklik göstərib".

Qarşılıqlı münasibətlərin tənzimlənməsi üçün əlavə qanuna ehtiyac olub-olmaması ilə bağlı sualı cavablandıran bələdiyyə sədri, çətinliyə rast gəlmədikləri üçün hələki hansısa qanunun qəbul edilməsindən danışmağa çətinlik çəkdiyini deyib: "Hər bir qurumun özünün səlahiyyəti var. Hər kəs öz işini yüksək vətəndaşlıq borcunu yerinə yetirməklə görür və görəcək. Lakin biz bələdiyyə olaraq, öz işlərimizi irəliyə çəkmək üçün qanunvericilikdə müəyyən dəyişikliklərin olması ilə bağlı müraciətlərimiz var. Bu əsasən vergi ödəyicilərinin vergiyə cəlb olunması ilə bağlıdır. Yəni, həm daha geniş əhatə dairəsini əldə etmək üçün edilən təkliflərdir ki, bununla bağlı qanunlara dəyişikliklər edilməlidir. Bununla bağlı, Nəsimi bələdiyyəsi olaraq, artıq müraciət etmişik".

N.Qaraxanov bildirib ki, Nəsimi rayonu şəhərin mərkəzi rayonlarından biri olduğuna görə, Avropa Oyunları ilə bağlı turist və idman marşrutlarıburadan keçir: "Həm Nəsimi bələdiyyəsi, həm də rayon icra hakimiyyəti, eləcə də sakinləmiz bu yarışların maraqla izlənməsi təmin olunub. Xüsusilə, Avropa Oyunları məşəlinin rayonumuzdan keçərkən bələdiyyə olaraq lazımi tədbirlər görməklə yanaşı, həm də iştirak etmişik.

Eyni zamanda Avropa Oyunlarının Təşkilat Komitəsinin rəhbərliyi, Fövqəladə Hallar Nazirliyi, icra hakimiyyətinin müvafiq strukturları tərəfindən müşavirələr keçirilib və bələdiyyə olaraq bizdə iştirak etmişik. Bu müşavirədə qabaqcadan istiqamətlər müəyyənləşdirilmiş, hər bir qurumun funksiyası aydınlaşdırılmışdır".

N.Qaraxanov əlavə edib ki, Nəsimi bələdiyyəsinə məxsus nesimibelediyyesi.comsaytı vasitəsilə tezliklə onlayn ödəmə xidməti istifadəyə veriləcək. Onun sözlərinə görə, rayon sakinləri torpaq və əmlak vergisini onlayn şəkildə rahat ödəyə biləcək: "Eyni zamanda Səməd Vurğunla Mirqasımov küçələrinin kəsişdiyi yerdə keçmiş icra hakimiyyətinin binasında indi bələdiyyə yerləşir və binanın eyvanlarındakı dibçəklər yenilənir. Bununla biz istəyirik ki, rayonumuzda "Ən gözəl eyvan" müsabiqəsini keçirək. İlin sonunda müsabiqədə 1-ci, 2-ci və 3-cü yerin qaliblərinə müvafiq qaydada pul mükafatı təqdim ediləcək. Məqsədimizdə bununla da insanları şəhərin gözəlliyini qorumağa təşviq edək. Məhz bu addım icra hakimiyyəti ilə birgə müzakirələrin nəticəsidir.

O cümlədən gələcəkdə köhnə və sovet dönəmində istifadəyə verilmiş binaların sakinlər tərəfindən idarə edilməsi üçün sistemin yaradılması istiqamətində müvafiq işlər həyata keçirilir. Həm icra hakimiyyəti, həm də bələdiyyə bunu birgə həyata keçirir. Çünki qanunvericilikdə icra hakimyyəti və bələdiyyələrlə bağlı istiqamətlər nəzərdə tutulub. Mənzil İstismar Sahələri tərəfindən toplanan 2 qəpiklə binaları saxlamaq çox çətindir. Digər xidmət sahələrində rüsumların artmasına baxmayaraq, MİS-lərə ödəniləcək məbləğ elə 2 qəpik olaraq qalıb. Buna görə də, binaların idarə edilməsi üçün 1991-ci ildəki qiymətlər indiki qiymətlərə modifikasiya olmalıdır. Bundan sonra inventarlaşdırma aparılacaq, binalardakı bütün əskiklər aradan qaldırılandan sonra sakinlərə idarə edilməsi üçün veriləcək. Yox, əgər onlar qəbul etməzsə, qanunla nəzərdə tutulduğu kimi bələdiyyə tender yolu ilə binaların idarə edilməsini təmin edəcək".

***Bəxtiyar Məmmədli***

## Xəbərlər

### Bələdiyyə bayram sovqatı paylayıb

Mingəçevir bələdiyyəsindən Belediyye.info saytına daxil olan məlumata görə, hər il olduğu kimi, bu il də Ramazan Bayramı münasibəti ilə Mingəçevir bələdiyyəsi 250 nəfər imkansız ailəyə ərzaq bağlaması payladı. Bu məqsədlə təşkil olunmuş tədbirdə Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısının I müavini İlham İsmayılov və Mingəçevir Bələdiyyəsinin sədri Coşqun Abdullayev müqəddəs Ramazanla bağlı təbrik nitqi söylədilər.

Qeyd edək ki, ərzaq bağlamalarının hazırlanması üçün bələdiyyə büdcəsindən 2500 manat vəsait ayrılmışdır.

***Belediyye.info***

### Mövsüm Bağırov: "Vətəndaş borcunu vermir, ancaq bələdiyyədən çox şey istəyir"

**"Yeni qaydalarla bağlı vətəndaşların maarifləndirilməsi üçün bildirişlər paylanılanda onlara izah olunur. O cümlədən Xızı rayonunun ayda bir dəfə çıxan qəzeti var və ara-sıra orada da məlumatlandırma xarakterli yazılar nəşr edilir"-bu fikirləri Xızı bələdiyyəsinin sədri Mövsüm Bağırov deyib.**

Onun sözlərinə görə, Xızı bələdiyyəsinin ərazisində əhalinin sayı elə də çox deyil: "Cəmi 1500 nəfər yaşayır ki, onları da demək olar ki, hər gün görürük. Yığıma gəldikdə isə əhali vergini ödəməyə bir o qədər maraq göstərmir.

Əmlakların qeydiyyatı ilə bağlı yeni proqram var, bələdiyyəmiz həmin proqrama əsasən işləməyə başlayıb. İcra hakimiyyəti ilə əməkdaşlığa gəlincə, bizim üçün heç bir problem yoxdur. Lazım olanda müraciət edirik, bizə köməklik göstərirlər. Çünki nəinki bizim, ümumiyyətlə bir çox bələdiyyələrin imkanları məhduddur. Bələdiyyə işçilərinin də maaşlarını çalışırıq ki, gecikdirməyək".

M.Bağırov deyib ki, bələdiyyələrin maliyyə imkanlarının artırılması üçün pul gətirən sahələr yaratmaq lazımdır. Onun sözlərinə görə, texniki, kənd təsərrüfatı və digər sahələrlə bağlı ola bilər: "Misal üçün, avtomobil təmiri sexi. Bələdiyyənin maliyyəsi olsa, belə bir sex inşa etdirər və vətəndaşa icarəyə verər, həmin icarə haqqı da bələdiyyənin büdcəsinə gələr. Eyni zamanda mərasim zalları, şadlıq evi tikə bilər, iaşə obyektləri aça bilər və sair".

Bələdiyyə sədri deyib ki, vətəndaş borcunu vermir, ancaq bələdiyyədən çox şey istəyir: "Vətəndaşlar gətirib 10 manat vergi borcunu versin, sonra gəlib tələb eləsin ki, mənim büdcəyə ödədiyim pulu nə etmisiz. Axı vətəndaş bunu eləmir? Hər şey burdan qaynaqlanır. Dövlət hər cür şərait yaradıb, bələdiyyəyə də, vətəndaşa da. Vətəndaşların üzərinə böyük məsuliyyət düşür.

***Bəxtiyar Məmmədli***

### Mərkəz 23 bələdiyyədə ciddi hüquq pozuntuları aşkar edib

**Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzindən Belediyye.info saytına daxil olan məlumata görə, cari ilin birinci yarısında mərkəzə bələdiyyələrin fəaliyyətiylə bağlı şikayət xarakterli 858 müraciət daxil olub.**

Ötən hesabat dövründən qalıq qalmış 53 müraciəti də nəzərə alsaq, həmin müraciətlərin sayı 911 olub. Birinci yarımildə Nazirliyin "Qaynar xətti" vasitəsilə Mərkəzə 97 müraciət daxil olub ki, onlardan 3 müraciət əsasında araşdırma aparılmış və toplanmış materiallar hüquqi qiymət verilməsi üçün prokurorluq orqanlarına göndərilmiş, 86 müraciət qanunvericiliyin tələbləri izah olunmaqla cavablandırılmışdır.

Məlumatda daha sonra qedy olunur ki, 43 bələdiyyənin fəaliyyəti inzibati nəzarət icraatı qaydasında araşdırılmış, onlardan 23-də daha ciddi hüquq pozuntularına yol verildiyinə görə toplanmış materiallar hüquqi qiymət verilməsi üçün prokurorluq orqanlarına göndərilib. 8 müraciət Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2009-cu il tarixli "Dövlət və bələdiyyə əmlakının və vəsaitlərinin idarə olunması sahəsində korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsi haqqında" Fərmanına uyğun olaraq araşdırılması üçün Azərbaycan Respublikası Baş Prokurorluğuna göndərilmişdir.

Müraciətlərə baxılarkən aşkar edilmiş qanun pozuntularıyla bağlı bələdiyyələrə 141 tövsiyə göndərilib.

***Belediyye.info***

BƏLƏDİYYƏ HƏYATI
BƏLƏDİYYƏLƏR YERLİ ÖZÜNÜİDARƏETMƏNİN DEMOKRATİK FORMASIDIR

# KORRUPSİYA İLƏ MÜBARİZƏDƏ HƏR BİRİMİZİN ÜZƏRİN BÖYÜK MƏSULİYYƏT DÜŞÜR



**Taryel Qəhrəmanov**
**Şəmkir regional ədliyyə şöbəsinin məsləhətçisi,**
**II dərəcəli ədliyyə qulluqçusu**

**Son illər ölkəmizdə aparılan ardıcıl islahatlar nəticəsində iqtisadi inkişaf həyatımızın bütün sahələrini əhatə etmiş, iqtisadi potensial güclənmiş, sosial sahənin və infrastrukturun inkişaf etdirilməsi istiqamətlərində büdcə vəsaitləri hesabına maliyyələşdirilən dövlət proqramlarının və onlara sərf olunan vəsaitin həcmi əhəmiyyətli dərəcədə artmışdır.**

Ölkənin iqtisadi cəhətdən qüdrətlənməsi artan maliyyə vəsaitlərinin səmərəli xərclənməsinə ciddi nəzarətin həyata keçirilməsini zəruri edir.

Şəmkir Regional Ədliyyə Şöbəsinə daxil olan müraciətlərin ümumiləşdirilməsi göstərir ki, bəzi hallarda dövlət və bələdiyyə vəsaitləri, o cümlədən dövlət büdcəsi hesabına maliyyələşdirilməsi nəzərdə tutulan dövlət proqramları çərçivəsində ayrılan vəsaitlər təyinatı üzrə xərclənmir, dövlət və bələdiyyə əmlakının və maliyyə vəsaitlərinin idarə olunmasında nöqsanlar nəzərə çarpır, vəsaitlərin istifadə olunmasına, tənzimləyici və nəzarət funksiyalarının yerinə yetirilməsinə cavabdeh olan vəzifəli şəxslərin fəaliyyətində korrupsiya halları müşahidə olunur.

Korrupsiyaya qarşı mübarizə haqqnda Azərbaycan Respublikası Qanunun 1-ci maddəsinə əsasən Korrupsiya dedikdə - vəzifəli şəxslərin öz statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin qanunsuz olaraq vəzifəli şəxslərə təklif və ya vəd olunması və yaxud verilməsi yolu ilə həmin vəzifəli şəxslərin ələ alınmasıdır.

Korrupsiyaya qarşı mübarizə haqqnda Azərbaycan Respublikası Qanunun 2-ci maddəsində Korrupsiya ilə əlaqədar hüquqpozmaların subyektləri gösdərilmiş və həmin subyektlərin dairəsinə (2.1.7-ci maddəsində) yerli özünüidarəetmə orqanlarında təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını həyata keçirən şəxslərdə daxil edilmişdir.

Korrupsiya ilə əlaqədar hüquqpozmalar dövlət vəsaitlərinin nəzərdə tutulmuş istiqamətlərdə xərclənməsinin qarşısını almaqla dövlətə və cəmiyyətə böyük ziyan vurur, ölkəmizin daha sürətlə inkişafına mane olur, əhalinin rifahının artırılması sahəsində görülən tədbirlərin səmərəsini azaldır.

Korrupsiyaya yol verilməməsi üçün dövlətin büdcə və digər maliyyə vəsaitlərinin, bələdiyyələrin vəsaitlərinin istifadə olunması, dövlət və bələdiyyə əmlakına sahiblik, istifadə və sərəncam verilməsi, habelə tamamilə dövlət mülkiyyətində olan və ya səhmlərinin (paylarının) nəzarət zərfi birbaşa və ya dolayısı ilə dövlətə məxsus olan hüquqi şəxslərin (bundan sonra - dövlət müəssisəsi) idarə olunması sahələrində istifadə, tənzimləmə və nəzarət funksiyalarının yerinə yetirilməsinə cavabdeh olan vəzifəli şəxslərin fəaliyyətində şəffaflıq təmin edilməli, qanun pozuntuları ilə mübarizə dahada gücləndirilməli, qeyd olunan sahələrdə hüquqpozmalar barədə müraciətlərdə göstərilən halların yoxlanılması daim diqqətdə olmalıdır.

Dövlət və bələdiyyə əmlakının və vəsaitlərinin idarə olunması sahəsində korrupsiya ilə əlaqədar hüquqpozmalaraqarşı mübarizənin gücləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 22. 06. 2009-cu il tarixli fərmanına əsasən "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi dövlətin büdcə və digər maliyyə vəsaitlərinin, həmçinin bələdiyyələrin vəsaitlərinin istifadə olunması, dövlət və bələdiyyə əmlakına sahiblik, istifadə və sərəncam verilməsi, dövlət müəssisələrinin idarə olunması sahələrində dövlət nəzarətinin səmərəliliyinin artırılması və bu sahədə korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsi istiqamətində-Bələdiyyələr, bələdiyyə orqanları və onların vəzifəli şəxsləri tərəfindən nəzərdə tutulmuş sahələrdə qanunvericiliyin tələblərinə riayət edilməsinə nəzarəti artırılması, qanunvericiliklə müəyyən edilmiş qaydada bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi zamanı cinayət əlaməti olan korrupsiya ilə əlaqədar hüquqpozmalar aşkar etdikdə müvafiq sənədlərin dərhal Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilməsi tapşırılmışdır."

Bu tapşırıq üzrə keçən dövrlər ərzində Ədliyyə Nazirliyi tərəfindən korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi məqsədilə qəbul edilmiş dövlət proqramlarına müvafiq olaraq kompleks tədbirlər həyata keçirilmiş, normativ-hüquqi baza təkmilləşdirilmiş, vəzifəli şəxslər tərəfindən qulluq mövqeyindən sui-istifadə etməklə törədilən hüquqpozmaların qarşısının alınması məqsədilə nəzarət mexanizmləri inkişaf etdirilmişdir.

Təkcə 2014-cü il üzrə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət qaydasında bələdiyyələrin fəaliyyətində aşkar edilmiş ciddi hüquq pozuntuları ilə əlaqədar Şəmkir Regional Ədliyyə Şöbəsi tərəfindən 43 material prokurorluq orqanına göndərilmiş, 8 iş üzrə cinayət işi başlanılmış, digər işlər üzrə qanunamüvafiq araşdırmalar davam etdirilir.

Lakin, görülən tədbirlərlə kifayətlənməyərək ümumbəşəri sosial bəla olan korrupsiyanın tam aradan qaldırılması üçün daha sərt və qətiyyətli addımların atılması bizlərdən tələb olunur.

# Azərbaycanın bir qrup bələdiyyə sədri Litvada səfərdə olub




**Litva Respublikası Bələdiyyə İttifaqının və Litva Respublikasının Azərbaycandakı Səfirliyinin təşəbbüsü və təşkilatçılığı ilə bir qrup bələdiyyə sədri Litva respublikasında səfərdə olub.**

Azərbaycan Milli Qəsəbə Asosoisasiyasından Belediyye.info daxil olan məlumata görə, iyulun 14- 18 aralığında kerçəkləşən səfərdə nümayəndə heyətinin tərkibinə Azərbaycan Milli Şəhər Bələdiyyə Assosiasiyasının sədri Əbülfəz Babayev, Azərbaycan Milli Qəsəbə Assosiasiyasının icra katibi Tofiq Həsənov, Nəsimi Bələdiyyəsinin sədri Nazim Qaraxanov, Yasamal Bələdiyyəsinin sədri Zakir Cəfərov, Mərdəkan Bələdiyyəsinin sədri Mirbaba Hüseynov və Şirvan Bələdiyyəsinin sədri Kürdoğlu Muradov daxil olub.

Nümayəndə heyətinin Litva Bələdiyyyə İttifaqında, Mərkəzi Seçki Komissiyasında və Daxili İşlər nazirliyində görüşlər keçirmişdir. Litvanın Druskininkay meri Riçard Malinunkas və Trakaya meri Edita Rudyalene ilə maraqlı fikir mübadilə həyata keçirlmiş, bələdiyyə qanunvericiliyindəki ortaq məqamlar müzakirə edilmişdir. Müzakirələrdə Litva tərəfi Azərbaycan bələdiyyələrinin fəaliyyətini diqqətlə izlədiklərini və təcrübə mübadiləsi etmək niyyətində olduqlarını bildirmişlər.

***Belediyye.info***

# "Əhalinin 30 faizinin kupçası yoxdur"

**"Əmlak və torpaq vergisinin toplanmasında çətinlik çəkirik. Lakin əhali arasında vergilərin ödənilməsi ilə bağlı maarifləndirmə işləri həyata keçiririk".**

Bu fikirləri belediyye.info saytına açıqlamasında Ağdaş bələdiyyəsinin sədri Qabil Qarayev deyib. Onun sözlərinə görə, vətəndaşlara bildirişlər paylanılıb: "Ödənişləri bank vasitəsilə qəbul edirdik, lakin indi həm bank, həm də post vasitəsilə aparırıq. Qeyd edim ki, torpaq vergisi ilə bağlı əvvəldən borclar var və məhkəmə perspektivi olanlarla bağlı müraciət edirik. Bu da ki, son 2 il ərzində olanlarla bağlıdır. Vətəndaşların sənədləri ilə bağlı problemlər var. Belə ki, ailə başçısı dünyasını dəyişib, lakin hələ də əmlakı və torpağı onun adına gedir. Bu da bələdiyyə üçün bu gün ciddi problem yaradır. Burada 7 minə yaxın təsərrüfat var, ancaq əhalinin 30 faizinin kupçası yoxdur. Sənədləri düzgün deyil, hamısı əlində əvvəllər verilən qərarlardır. Əhalinin öz əmlaklarına dair sənədlərinin düz olmaması bələdiyyənin fəaliyyətinə də mənfi təsir göstərir.

Mən bələdiyyəyə sədr gələnədək işçilərin maaşı torpaqların satışından gələn pulla ödənilib. Lakin sədr olduğum müddətdə nə torpaq satmamışam, nə də satılası torpaq yoxdur. Əmlak və torpaq vergisindən gələn maliyyə hesabına işçilərin maaşını ödəyirəm. Dövlət Sosial Müdafiə Fonduna borcumuz var və bu məndən əvvəl daha çox idi.

Günün isti vaxtlarında yox, amma axşam saatlarında vətəndaşların evinə gedib, vergilərini ödəmək üçün müraciət edirik. Belə etməsək, vergini ödəyən olmur, ən azından 10-dan 2-i gətirib ödəyir".

Q.Qarayev deyib ki, bələdiyyələrin maliyyə vəsaitinin artırılması istiqamətində keçmiş bələdiyyə sədrləri çoxlu səhvlər edibl ər: "Səhvi onda ediblər ki, bələdiyyə özünə heç olmasa, 20-30 sot torpaq almayıb. Əgər alsaydılar, orada yavaş-yavaş mağazalar tikə bilərdi. Yaxud da, xeyir-şər üçün çadır, stol, stul alardı, başqası 200 manata verəndə, bələdiyyə 100 manata verərdi. O cümlədən bunları xeyriyyə məqsədilə şəhid ailələri, imkansızlara, müharibə iştirakçılarına pulsuz vermək imkanı da olardı. Ümumilikdə, bələdiyyənin ayda heç olmasa 500-1000 manat kənardan gəliri olmalıydı ki, özü-özünü dolandıra bilsin. Yoxsa, bu torpaq və əmlak vergisi ilə bələdiyyə özünü saxlaya bilməz".

***BƏXTİYAR***

# Bahadur Kərimov: "Bələdiyyələr tərəfindən qəbul edilmiş inzibati aktlar icra sənədləri sayılır"

**Son günlər əmlak və torpaq vergilərinin yığılması ilə bağlı yaranan problemlərin aradan qaldırlması məqsədi ilə bələdiyyələrin məhkəməyə müraciət etdiyi deyilir. Belə bir qərarın bələdiyyələr tərəfindən verilməsi nə qədər qanunauyğundur?**

Bu və digər məqamlara Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş mərkəzinin aparıcı məsləhətçisi Bahadur Kərimov aydınlıq gətirir:



- Bələdiyyələrlə iş mərkəzi tərəfindən bələdiyyə qərarlarının icrası ilə bağlı qanunvericiliyin düzgün tətbiq olunmadığı, bəzi hallarda isə pul tələbi ilə bağlı qərar qəbul edilməsi üçün məhkəmələrə müraciət edildiyi müəyyən edilmişdir.

"İnzibati icraat haqqında" Qanunun 82.1-ci maddəsində pul tələblərinin ödənilməsi ilə bağlı inzibati aktların "İcra haqqında" Qanuna uyğun olaraq icra məmurları tərəfindən icra edilməsi nəzərdə tutulmuşdur. Həmin Qanunun 82.2-ci maddəsinə əsasən inzibati aktı qəbul etmiş inzibati orqan tələbin icraya yönəldilməsi haqqında qərar qəbul edir və bu halda tələbin icraya yönəldilməsi üçün məhkəmə qərarının qəbul edilməsi tələb olunmur. "İcra haqqında" Qanunun 6.1-ci və 6.1.8-ci maddələrinə uyğun olaraq bələdiyyələr tərəfindən qəbul edilmiş inzibati aktlar və digər inzibati orqanların pul tələblərinin ödənilməsi ilə bağlı inzibati aktları icra sənədləri sayılır.

Eyni zamanda, tələbin icraya yönəldilməsi haqqında qərar birmənalı şəkildə hansı tələbin (məbləğ, forma, müddət) irəli sürüldüyünü əks etdirməlidir. Bu qərar özü müstəqil olaraq inzibati akt hesab edilir və ona qarşı müstəqil qaydada inzibati şikayət və inzibati icraat (mübahisələndirici) qaldırıla bilər. Bu qərarın qüvvəyə minməsindən ötrü inzibati akt üçün irəli sürülən tələb, yəni borcluya məlumat verilməsi (inzibati aktın rəsmi qaydada çatdırılması) vacibdir.

Qanunun 82.3-cü maddəsində tələbin icraya yönəldilməsi haqqında qərarın qəbul edilməsinin aşağıdakı şərtləri müəyyən edilmişdir.

- borclu tərəfindən ən azı 10 gün ərzində pul tələblərinin ödənilməsini nəzərdə tutan inzibati aktın qəbul edilmiş olması;
- pul tələblərinin ödənilməsi üçün müəyyən olmuş icra müddətinin bitməsi;
- inzibati orqan tərəfindən borcluya edilmiş xəbərdarlıqdan sonra, xəbərdarlığın elan olunduğu gündən sonrakı 10 gün müddətində borclunun ödəməni həyata keçirməməsi.

Qeyd edilməlidir ki, pul tələbinin icraya yönəldilməsi üçün inzibatı akt göstərilən şərtlərə uyğun qəbul edilməlidir və yalnız bu şərtlərin hamısı mövcud olduqda məcburi icra təmin edilə bilər. İnzibati aktın maraqlı şəxsə münasibətdə hüquqi qüvvəyə malik olması üçün bu barədə maraqlı şəxsə məlumatın verilməsi əsas şərtdir.

Yuxarıda qeyd edilənlərdən belə qənaətə gəlmək olar ki, bələdiyyələr pul tələbləri ilə bağlı inzibati aktların məhkəmədən kənar qaydada məcburi icraya yönəldilməsinə üstünlük verməlidirlər. Bələdiyyələrlə iş Mərkəzi tərəfindən bu məqamla bağlı hələ 2013-cü ildə bələdiyyələrə tövisiyə verilmişdir.

## ALLAH RƏHMƏT ELƏSİN

Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzinin kollektivi Mərkəzin məsləhətçisi Dilrüba İsayevaya anası
**Sabiqə xanımın**
vəfatından kədərləndiyini bildirir və dərn hüznlə başsağlığı verir.

---

"Bələdiyyə hayatı" qəzetinin kollektivi Mərkəzin məsləhətçisi Dilrüba İsayevaya anası
**Sabiqə xanımın**
vəfatından kədərləndiyini bildirir və dərn hüznlə başsağlığı verir.

**"Bələdiyyə həyatı" qəzetinə abunə olmağa tələsin**

***Qəzetin illik abunə haqqı 67 (altmış yeddi) manatdır.***

**"Bələdiyyə həyatı" qəzeti redaksiyasının abunə rekvizitləri**

Adı: "ATRABANK" ASC
Kodu: 507525 VÖEN: 9900010231
Müxbir hesabı:
AZ94NABZ01350100000000025944
S.W.I.F.T. BİK ATRAAZ22

**"BƏLƏDİYYƏ HƏYATI" QƏZETİ MMC**
**HESAB N_**
**AZ11ATRA40090048000000000064**
**VÖEN: 1001116461**




Təsisçi: T.Səlimzadə

Redaktor:
Vüqar TOFİQLİ

Redaksiyanın ünvanı:
*Bakı şəhəri, Bəşir Səfəroğlu küçəsi 141. AZ1009*

Tel: (012) 594-47-35
Mob: (+994 070) 221-28-14

Qəzet Ədliyyə Nazirliyində qeydə alınmışdır.
17.02.2003

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Faktlara görə müəlliflər məsuliyyət daşıyır.

Adı: "ATRABANK" ASC
Kodu: 507525 VÖEN: 9900010231
Müxbir hesabı:
AZ94NABZ0135010000000002594
S.W.I.F.T. BİK ATRAAZ22
"Bələdiyyə həyatı" qəzeti MMC
Hesab N_
AZ11ATRA40090048000000000064
VÖEN: 1001116461

Dizayner:
Zaur ƏLİYEV

"Azərbaycan" nəşriyyatında çap olunub

Sifariş: 2406
Tiraj: 2000